AHK
Deutsch-Aserbaidschanische Auslandshandelskammer
Alman-Azərbaycan Xarici Ticarət Palatası

AHK Aserbaidschan ♦ Winter Park Plaza, 7. Stock ♦ Rasul Rza Str. 75 ♦ AZ 1014 Baku ♦ Aserbaidschan

# PRESS-RELİZ

Bakı, 17 oktyabr 2024-cü il

## İnnovasiya, Əməkdaşlıq, Transformasiya - Dayanıqlı Gələcəyin Qurulması

17 oktyabr 2024-cü il tarixində **Alman-Azərbaycan Xarici Ticarət Palatası (AHK Azərbaycan)** qarşıdan gələn COP29 iqlim konfransına hazırlıq məqsədilə **"İnnovasiya, Əməkdaşlıq, Transformasiya: Dayanıqlı Gələcəyin Qurulması"** şüarı altında növbəti tədbirini keçirib. Tədbirdə 70-dən çox qonaq iştirak edib. Tədbirin fəxri qonaqları, **Kamal Abbasov, Azərbaycan Respublikası Energetika Nazirinin müavini, və Sevinc Fətəliyeva, Milli Məclisin deputatı və COP29 Təşkilat Komitəsinin üzvü,** COP29 ilə bağlı aktual məqamları tədbir iştirakcılarının nəzərinə çatdırıb. Bunun ardınca isə, öz sahəsinin tanınmış nümayəndələri ilə maraqlı panel müzakirəsi keçirilib.

**AHK Azərbaycan İdarə Heyətinin Sədr müavini Dr. Henning Sasse,** tədbir iştirakçılarını açılış nitqi ilə salamlayıb və tədbirin proqramına dair məlumat verib. Daha sonra, o, sözü **Almaniya Federativ Respublikasının Azərbaycandakı Səfirinin müavini Heiko Schwarza** verib.

**Cənab Schwarz** öz çıxışında Azərbaycanın Alman biznesləri üçün mövcud potensial imkanlarını vurğulayıb. O həmçinin Azərbaycanda Almaniyanın innovativ təcrübəsinin mübadiləsini təşviq etmək və ölkələrimiz və bütövlükdə Aİ arasında əməkdaşlığı inkişaf etdirməyin önəmindən danışıb. Cənab Schwarz nitqini: "COP29 bu bölgədə inkişafın sürətlənməsi üçün bir katalizator rolunu oynaya bilər. Gəlin bu fürsətdən istifadə edərək, birgə innovasiyanı və dayanıqlı inkişafı irəlilədək! Mən əminəm ki, gələcəkdə Azərbaycan yalnız neft və qaz istehsalçısı kimi deyil, eyni zamanda yaşıl enerji lideri kimi də qlobal səviyyədə tanınacaq" sözləri ilə bitirib.

Daha sonra **Kamal Abbasov** Azərbaycanın yaşıl enerji sektorundakı dinamik inkişafı və layihələri haqqında əsas məqamları işıqlandırıb. O bildirib ki: "Strateji tədbirlərin həyata keçirilməsi nəticəsində, 2027-ci ilə qədər bərpa olunan enerji payının elektrik enerjisinin qoyuluş gücündə **33** %-ə, elektrik enerjisinin istehsalında isə **25** %-ə çatacağı planlaşdırılır. Bu təşəbbüs, quraşdırılmış tutumdakı bərpa olunan enerji payını artırmağı və elektrik istehsalını gücləndirməyi məqsəd qoyaraq, Azərbaycanın 2030-cu il üçün nəzərdə tutulmuş 30% hədəfini aşmağı mümkünləşdirir. Bu məqsədlərə çatmaq üçün Azərbaycanın bərpa olunan enerji mənbələrində əhəmiyyətli potensialı var." Cənab Abbasov, həmçinin Azərbaycanın Masdar, ACWA Power və bp kimi aparıcı beynəlxalq şirkətlərlə bərpa olunan enerji layihələrində əməkdaşlıq etdiyini qeyd edib. Bu tərəfdaşlıqların, daxili istehlakı asanlaşdırıb, iqtisadiyyatın dekarbonizasiyasına töhfə verərək gələn onillikdə ixracı artıracağını da qeyd edib. Əlavə olaraq, o, COP29-un dayanıqlı gələcək üçün iqlim dəyişikliyinə qarşı mübarizədəki əhəmiyyətini vurğulayıb.

Görüşün davamında **Almaniyanın İqtisadiyyat və İqlim Fəaliyyəti üzrə Federal Nazirliyinin Beynəlxalq İqlim Fəaliyyəti və Beynəlxalq Enerji Keçidi üzrə Baş direktorunun müavini Dr. Vera Rodenhoffdan** önəmli bir video mesaj dinlənilib. Dr. Rodenhoff mesajında, COP29-un

hökumətlər və bizneslər arasında sərhədləri aşan əməkdaşlıq üçün vacib bir fürsət olduğunu vurğulayaraq bu prosesin dayanıqlı inkişaf və yaşıl gələcəyə doğru irəliləyişə böyük tövhə verə biləcəyini bildirib. O eyni zamanda, enerji səmərəliliyinin artırılmasının zərurətini də xüsusilə qeyd edib.

**Sevinc Fətəliyeva** çıxışında Azərbaycanın yaşıl iqtisadiyyatını və dayanıqlı inkişafını təşviq etmək istiqamətində həyata keçirilən təşəbbüslərdən bəhs edib. Əsas məqamlar arasında İsveçrədəki WTO İctimai Forumunda təqdim olunan Bakı İqlim Maliyyəsi, İnvestisiya və Ticarət Təşəbbüsü (BICFIT) yer alıb. O, həmçinin beynəlxalq standartlara uyğunluğu təmin etmək məqsədilə Azərbaycanın BMT ilə metodoloji və texniki dəstək üçün memorandumların imzalandığını vurğulayıb. Daha sonra Xanım **Fətəliyeva** qeyd edib ki, COP29 enerji keçidinin maliyyələşdirilməsi mexanizmlərinin təmin olunmasına yönələcək. Fəaliyyət Proqramında yer alan əsas təşəbbüslərdən biri İqlim Maliyyələşdirilməsi üzrə Fəaliyyət Fondunun (CFAF) yaradılmasıdır. Bu fond iqlim maliyyələşdirilməsində mövcud boşluqların aradan qaldırılmasında önəmli rol oynayacaq. Xanım Fataliyeva, həmçinin COP29 kontekstində Azərbaycanın Beynəlxalq Parlamentlər İttifaqı (IPU) ilə əməkdaşlığının əhəmiyyətini vurğulayıb. Çıxışından sonra, xanım Fataliyeva iştirakçıların suallarını ətraflı şəkildə cavablandırıb.

Tədbir **Sustainera Solutions şirkətinin İcraçı Direktoru İlkin Hacıyevin** moderatorluğu ilə **"ESG-nin Dayanıqlı inkişafda təsiri: Enerji, Nəqliyyat və Tikinti"** adlı maraqlı panel müzakirəsi ilə davam edib.

Paneldə **SOCAR Green MMC-nin Baş Direktoru Elmir Musayev; Azərbaycan Sement İstehsalçıları Assosiasiyasının (ASİA) İdarə Heyətinin Üzvü Khalid Samaka; PMD Projects MMC-nin Keyfiyyət və SƏTƏM üzrə Rəhbəri Vüqar Hacıyev; Bakı Beynəlxalq Dəniz Ticarət Limanı QSC-nin ESG üzrə Məsləhətçisi və Dayanıqlı İnkişaf Təşəbbüsləri üzrə Layihə Rəhbəri Qurban Kərimbəyli və PwC Azərbaycanda Genişləndirilimiş Təminat Xidmətləri üzrə Baş Menecer Günay Əsgərova** iştirak ediblər. Panel iştirakçıları təmsil etdikləri şirkətlərin davamlılığı və ESG strategiyaları haqqında tədbir qonaqlarını məlumatlandırıb və bu strategiyaları inkişaf etdirmək üçün müxtəlif layihələr və həll yolları ilə bağlı öz fikirlərini bölüşüb.

Tədbir sual-cavab sessiyası, canlı müzakirələr və sonda biznes naharı ilə başa çatıb. AHK İmpuls tədbirinə göstərdiyi dəstəyə görə **Yelo Bank ASC-yə** təşəkkür edirik.